UOT 75
https://doi.org/10.59849/2311-8482.2025.3.227

SAMİR SADIQOV*

# XALQ RƏSSAMI NATİQ ƏLİYEVİN YARADICILIĞINDA MONUMENTALLIQ

*Azərbaycan monumental heykəltəraşlığında xalq rəssamı Natiq Əliyevin özünəməxsus və aparıcı mövqeyi vardır. Bu da ilk növbədə heykəltəraşın məhz bu istiqamətdə formalaşmasından - əsas ixtisas təhsilinin məhz "Monumental heykəltəraşlıq" olmasından irəli gəlir. Məlumdur ki, Natiq Əliyev V.Muxina adına Sankt-Peterburq Ali Rəssamlıq Məktəbinin "Monumental heykəltəraşlıq" şöbəsini fərqlənmə diplomu ilə tamamlamış ilk azərbaycanlı heykəltəraşdır. Natiq Əliyevin Azərbaycan monumental heykəltəraşlığına verdiyi töhfələr yalnız respublikamızın müxtəlif guşələrində ucaldılmış Motsart, Zivərbəy Əhmədbəyov heykəlləri, Kiş kəndində məşhur Norveç səyyahı Tur Heyerdalın tunc heykəli və s. abidələrlə məhdudlaşmır, o, Azərbaycanın görkəmli icitimai-siyasi, ədəbi-bədii xadimlərinin respublikamızdan kənarda ucaldılmış çoxsaylı abidələrinin də müəllifidir. Kiyevdə Heydər Əliyevin, Mexikoda "Xocalı", Belqradda Heydər Əliyevin, Serbiyanin Novi-Sad şəhərində görkəmli bəstəkar Üzeyir Hacıbəylinin, Çernoqoriyanın paytaxtı Podqoritsa şəhərinin Kral parkındakı Hüseyn Cavid abidəsinin, Ankaranın Kızılcahamam rayonunda ucaldılan "Xocalı soyqırımı" heykəllərinin müəllifi Natiq Əliyevdir. Məqalədə müasirimiz, görkəmli Azərbaycan heykəltəraşı Natiq Əliyevin çoxşaxəli yaradıcılığına müraciət olunur, onun Bakı şəhərində ucaldılmış Motsart, Zivərbəy Əhmədbəyov və b.əsərlərinin bədii-texniki xüsusiyyətləri öyrənilir.*

***Açar sözlər:*** *Natiq Əliyev, heykəltəraşlıq, monumental, təsvir, forma, obraz, plastika.*

## Giriş

1980-ci ildə Azərbaycan heykəltəraşlıq məktəbinə gələn Natiq Əliyevin yaradıcılığında tədricən monumental heykəltəraşlıq abidələri üstünlük təşkil etməyə başlayır. Natiq Əliyevin monumental əsərləri onunla rəğbət qazanır ki, bu əsərlər müxtəlif həyat hadisələrinə müəllifin özünəməxsus münasibətini əks etdirir. Heykəltəraş fəza-məkan heykəl kompozisiyaları yaratmaq üzərində xüsusilə çox işləyir. Saysız-hesabsız etüdlər və qaralamalar da heykəltəraşın səmərəli fəaliyyət göstərdiyinə dəlalət edir. Natiq Əliyevin material seçimində nümayiş etdirdiyi məntiqli addımlar, kompozisiya siluetinin və xətt ritminin özünəməxsus müəllif münasibətinə tapınmış bədii həlli onun abidələrinin fərqli bədii tutumunun müəyyənləşməsində aparıcı rol oynayır. Bu da ondan irəli gəlir ki, heykəltəraş V.Muxina adına Sankt-Peterburq Ali Rəssamlıq Məktəbində məhz "Monumental heykəltəraşlıq" şöbəsini fərqlənmə diplomu ilə tamamlamış ilk Azərbaycanlı heykəltəraş olmuşdur.

Heykəltəraş Natiq Əliyev yaratdığı obrazları mərdlik, vətənpərvərlik, qəhrəmanlıq kimi xüsusiyyətlərlə bələməsi, orijinal plastik vasitələrdən yığcam kompozisiya quruluşunun yaradılmasında məharətlə istifadə etməsi surətlərin daxili aləmlərinin bütün incəliklərini üzə çıxarmaqda duyulası yardımçı olur.

## Əsas təhlil

Heykəltəraş Natiq Əliyev son zamanlar xüsusilə məhsuldar işləyərək dəyərli əsərlər ərsəyə gətirmişdir. Bunların arasında Heydər Əliyevin Kiyevdəki abidəsinin, Şəkinin Kiş kəndində yerləşən məşhur Norveç səyyahı Tur Heyerdalın tunc heykəllərinin, Bakı şəhərindəki Motsart, Zivərbəy Əhmədbəyovun heykəllərinin və "Bakı–Həştərxan dostluq abidəsi"nin adlarını çəkmək olar. Natiq Əliyev həmçinin, Mexikoda "Xocalı", Belqrad şəhərində Heydər Əliyev, serbiyalı yazıçı Milorad Paviçin, Serbiyanin Novi-Sad şəhərində yerləşən görkəmli bəstəkar Üzeyir Hacıbəylinin, Həştərxandakı Knyaz Vladimirin, Çernoqoriyanın paytaxtı Podqoritsa şəhərinin Kral parkındakı Hüseyn Cavid abidəsinin, Ankaranın Kızılcahamam rayonunda ucaldılan "Xocalı soyqırımı" heykəllərinin müəllifidir.

Natiq Əliyevin ilk ali təhsil almış azərbaycanlı memar Zivərbəy Əhmədbəyovun şərəfinə hazırladığı heykəl 2011-ci ildə Bakı şəhərində "Nizami" metro stansiyası qarşısında – onun adını daşıyan parkda ucaldılmışdır (memar Akif Abdullayev).

Bu böyük insanın, görkəmli ziyalının, istedadlı memarın xidmətlərinin tarixi etirafı 2011-ci il may ayının 26-da baş tutdu. Dövlət başçısı İlham Əliyevin Zivərbəy Əhmədbəyovun heykəlinin açılışında iştirakı bu böyük insana verilən böyük qiymət və hər birimizə bir işarə-xatırlatma idi. Natiq Əliyev meydanın mərkəzində ucalan Zivərbəy Əhmədbəyovun heykəlində emosiyaların sadə

təsbitetmə ifadəsindən qaçmağa çalışır, naturanın konkret həyati cizgilərini bacarıqla verir, eyni zamanda əsəri yüksək bir ümumiləşmə səviyyəsinə qaldırır. Zivərbəy Əhmədbəyovun heykəlində obrazın tamlığı, fiqur quruluşunun uğurlu tapıntısı cəlbedicidir. Fiqurun ümumi quruluşu, bacarıqla tapılmış ritmi və arxitektonikası Natiq Əliyev yaradıcılığında bədii vasitənin əsas xüsusiyyətlərindən biri olur. Abidədə fiqurun səciyyəvi vəziyyəti və hərəkətləri, onun hiss və həyacanlarının emosionallığı məharətlə təcəssüm etdirilmişdir. Heykəldə memarın mənəvi aləminin dinamikası, başının və sinəsinin, layihə tutan əlinin müvazinəti maraqlı cizgilərlə verilmişdir. Heykəltəraş öz ümumiləşdirmə qabiliyyəti, tipik, səciyyəvi cəhətlərin sərrast gözü ilə görüb seçə bilmək bacarığı sayəsində daxili qüvvəyə və tükənməz yaradıcılıq qüdrətinə malik bir sənətkar obrazı yarada bilmişdir. Memarın səciyyəvi çöhrəsində ciddi bir ifadə vardır, baxışından fikir aləmində olduğu sezilir. Dodaqlarının kip sıxılması da buna bədii-psixoloji işarədir. Heykəlin aydın və mənalı tərzdə yapılmış baş hissəsində ciddi forma kamilliyi və mütənasibliyi nəzərə çarpır.

Həmişə olduğu kimi, Natiq Əliyev bu abidəsində də işə başlarkən obrazın daha ifadəli görünməsi və fiqurun məkanla əlaqəsi üzərində təkidlə axtarış aparır. O, fiqurun konstruksiya həcminin heykəlləşməyə yönəli bədii məziyyətlərini qabartmağa çalışır. Həcmin təşkilində qəsdən tətbiq edilmiş şərtilik onun ətraf mühitdəki təsdiqini müəyyənləşdirir. Heykəltəraş ciddi cəhdlə həcmi modelləşdirir, bəzən onu yuxarıdan kiçik səthlərlə işləyir. Sənətkar təfəkkürünün rasional anı quruluşun bütövlüyündə də vardır, odur ki, ustadı əlhəddə həcmi qurmaqla ciddi və hətta sərt, lakin inandırıcı məntiqə tapınan həcmlərin ifadəliliyi cəlb edir. Ola bilsin ki, heykəltəraş memarı zahirən bir qədər ideallaşdırıb, lakin obrazın bu tərzdə ideallaştırılması-romantik tutum alması özünü sadəcə olaraq, xarici görkəmində göstərmir. Nəfis cilalanmış, möhtəşəm memarlıq abidələri yaratmış memarın obrazı Natiq Əliyevin tərəfindən böyük ustalıqla təsvir edilib. Memarın heykəli sanballı plastik nisbətlərdə həll edilmişdir. Abidənin təsirli plastika üsulları da heykəltəraşın səmərəli axtarışlar aparmaqla obraz və onun yaddaqalan təcəssümü barədə əldə etdiyi təsəvvürdən, yaradıcı təxəyyüldən doğmuşdur. Heykəlin memarlıq ansamblında əvvəldən ətrafa təsir edəcək yeri müəllif tərəfindən çox dəqiqliklə nəzərə alınmışdır. Fiqurun ölçü nisbətlərini, geyiminin bükümlərini, fəzada mövqeyini müəyyənləşdirərkən heykəltəraş, eyni zamanda, öz yaradıcılıq axtarışlarında əsas yer tutacaq sintez problemlərini də həll etmişdir.

Heykəltəraş Natiq Əliyev Avstriya bəstəkarı Volfqanq Amadey Motsartın heykəlini bir qədər fərqli tutumda - ritmik şəkildə yerinə yetirməyə nail olmuşdur. Mosartın heykəli 2011-ci ildə Bakı şəhərində ucaldılmışdır. (memar-rəssam Çingiz Fərzəliyev). Azərbaycan Prezidenti İlham Əliyev və Avstriya Federal Prezidenti Haynts Fişer 2011-ci il oktyabrın 12-də Bakıda dahi Avstriya bəstəkarı, Avropa klassik musiqisinin ən nüfuzlu nümayəndələrindən olan Volfqanq Amadey Motsartın xatirəsinə ucaldılmış abidənin açılış mərasimində iştirak etmişlər.

Heykəltəraş Natiq Əliyev Avstriya bəstəkarı Volfqanq Amadey Motsartın heykəlini işləməyə başlayanda öncə bəstəkarın yaradıcılığı ilə yaxından tanış olmuş və onun özünəməxsus xüsusiyyətlərini yaratdığı heykəlində göstərməyə nail olmuşdur. Heykəltəraş plastik ifadəliyin bütün gücünü, bütün diqqətini xarakterin psixoloji çalarlarının aşkarlanmasına yönəldib. Natiq Əliyevin yaradıcılığına məxsus mülayim incə çalarların qradasiyası, jestin dərindən düşünülmüş qənaətçiliyi - bütün bunlar tamaşaçı qarşısında bədii həlli tapılmış obrazın bütöv mənəvi-psixoloji aləmini, həyəcan və düşüncələrini açıqlayır. Heykəlin güclü, əzmli modelləşdirilməsi, alnın yüksək və fəal forması, dirijorun çöhrəsindəki sualedici, həm də bununla bərabər fikrə dalmış baxışı onun qəlbinin ən dərin guşəsindəki intim duyğuları bürüzə çıxarır. Odur ki, əsərdə əlinin hərəkəti üz cizgiləri ilə ayrılmaz vəhdət təşkil edir. Motsartın demək olar ki, bütün yaratdığı musiqiləri dinləyən heykəltəraş onu məhz iş başında reallıqda olduğu kimi yaratmışdır. Fiqurun quruluşunda işıq kölgə keçidlərində, musiqiçinin əllərinin qeyri - adi, ifadəli vəziyyətində daxili həyəcan və gərginliyin gücü, yaradıcı ruh hiss olunur. Bütün bunların yalnız yüksək sənətkarlığın sayəsində gerçəkləşdiyi şübhəsizdir. Qısa bir zamanda yaradılmasına baxmayaraq heykəltəraş çox dəqiq və incə keçidlər edərək dolğun bir əsər yaratmağa müvəffəq olmuşdur.

Natiq Əliyevin yaradıcılıq uğuru hesab edilən "V.A.Motsart" heykəli həqiqətən özünəməxsus cəhətləri ilə seçilir. Azərbaycan heykəltəraşlıq məktəbində bir çox heykəltəraşlar tərəfindən müxtəlif vaxtlarda Motsartın obrazı canlandırılmışdır. Ancaq bunlarının hər birinin

özünəməxsus daxili hissləri, zahiri bədii xüsusiyyətləri mövcuddur. Görkəmli heykəltəraşımız Tokay Məmmədovun ağacdan yaratdığı “V.A.Motsartın portreti” ilə onun işlədiyi “V.A.Motsartın” heykəlinin qarşılıqlı əlaqələrinin şahidi olmaq mümkündür. Hər ikisi Avstriya bəstəkarı Volfqanq Amadey Mosart həsr olunmuşdur və hər ikisində də görkəmli musiqiçinin sənət dünyasına özünəməxsus-fərqli münasibət hiss olunur.

Azərbaycan Prezidenti İlham Əliyev və Serbiya Prezidenti Boris Tadiç 2011-ci ilin iyun ayının 9-da Novi Sad şəhərində dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin büstünün açılışında iştirak etmişlər (memar Eldar Hüseynov).

Heykəltəraş Natiq Əliyev dahi bəstəkarın müxtəlif dövrlərdə yaradılmış heykəltəraşlıq obrazlarını və onun əsərlərini hərtərəfli öyrəndikdən sonra öz yaradıcılıq işinə başlamışdır. Büst - heykəlin bədii-psixoloji mənalılığına canlı, dəqiq detallar sayəsində nail olmuşdur. Bu əsərin üz cizgilərinə enerjili plastika səciyyəvidir, portretin xarakteriskasında daxili - mənəvi yaradıcı gücün ifadəsi qabarıqdır. Bəstəkarın yaradıcılığını, insani keyfiyyətlərini dərindən bilən heykəltəraş onun çöhrəsində dəqiqliklə bu keyfiyyətləri canlandıra bilmişdir. Belə ki, heykəltəraşın yaratdığı bu abidə bədii vasitələrin seçimi, eskizdən tutmuş orijinala qədər bütün axtarışları bir məqsədə - emosionallığının fəallığı duyulan obrazlı həllə nail olmağa tabe edilmişdir. Müəllif bəstəkarı yüksək kürsüdə yerləşmiş vəziyyətdə əks etdirmişdir. Kürsüdə oturdulmuş yarım fiqurun plastik mükəmməlliyi, abidəyə sakitliyə bələnmiş əzəmətli bir tutum bəxş etmişdir. Bunu həm də plastik ritmlərin axıcı olması şərtləndirmişdir. Onların bədii dəyəri tədricən abidənin ətrafına dolanarkən dərindən hiss olunur. Kompozisiyada bəstəkar yazdığı əsərləri ətrafında və əlində not dəftəri tutan vəziyyətdə, yeni əsəri haqqında düşünərkən verilmişdir. Həmişəki kimi Natiq Əliyev üçün bu dəfə də obrazların dərin düşüncəyə qərq olmuş halını bildirən əlin çənəyə aparılması jesti, dizləri üzərindəki not dəftərini əlində tutması böyük rol oynayır. Böyük bəstəkarın obrazı zahirən sakit görünsə də, abidəyə müxtəlif rakurslardan nəzər yetirdikdə daxili dinamika və psixologizmin heykəltəraş tərəfindən müxtəlif yollarla həll edildiyi aydın şəkildə duyulur.

Heykəltəraşın yaradıcılığının başqa bir xarakterik cəhəti Ü.Hacıbəylinin üzünün təsvirində əks olunur. Natiq Əliyev obrazların təcəssümündə xırda detallara uymadan ümumiləşdirilmiş, plastikliyi duyulan obraz yaradır. Mərmər büst-abidələrin plastik quruluşu, frontallığı, fəzada müəyyən bir istiqamətə yönəldilməsi, həcmlərin qapalı vəziyyəti bu abidələrə aydınlığı qabarıq görünən monumental görkəm verir. Buradakı monumentallıq zahiri görünüşlə əlaqədar olmaqdan daha çox obrazların məna-məzmun zənginliyi və tutum bitkinliyi ilə əlaqədardır.

Yuqoslaviya və Serbiya yazıçısı, şairi, postmodernizm və sehrli realizm nümayəndəsi, tərcüməçi və XVII—XIX əsr serb ədəbiyyatının tarixçisi Milorad Paviç heykəlini Natiq Əliyev monumental forma-biçimdə yerinə yetirməyə müvəffəq olmuşdur.

“Milorad Paviç” abidəsi üzərində işə başlayarkən Natiq Əliyev şairin yaradıcılıq irsini dərindən öyrənib. Obrazın bədii həllini axtararkən heykəltəraş uzun müddət müstəqil bir-birindən fərqli variantlar yerinə yetirmişdir. Kompozisiya motivlərinin çoxluğu və obrazın çətinliklə yaranması da prosesin gərginliyi ilə yanaşı, həm də maraqlı keçməsindən xəbər verir. Plastik formanın mənalığına yüksəlmək axtarışlarından və məzmunun dolğunluğundan, fikir daşıyıcılarının əksinə, zərif-incə münasibətdən xəbər verir.

Əsərin gerçəkləşən son variantında şair qəlbinin güzgüsü olan dərin və mənalı gözləri onun fikirlərə qərq olduğunu nişan verir. Heykəltəraşlar şairin yaradıcılıq ilhamı ilə yaşadığı vəziyyəti təsvir etmişlər. Obrazın üzündə işıq və kölgə təzadlarından məharətlə istifadə edilmişdir. Üzün lirik cizgilərinin axıcı tonlarından könülləri riqqətə gətirən əhval-ruhiyyə yaranmışdır. İfadə vasitələrinin bədii keyfiyyətləri ilə əldə edilən plastik gözəllik monumentin bütün hissələrində mövcuddur.

**Nəticə**

Heykəl dairəviliyə - bir neçə nöqtədən baxılmağa hesablanmışdır. Bunların hər biri şairin obrazını bütün zənginliyi ilə hiss etməyə imkan verir. Abidənin ətrafına dolanarkən həmin müxtəlif baxış nöqtələri tədricən açılır. Bu cür fərqli görünüş obrazdakı dolğun hissləri və abidənin zəngin plastikasını duymağa imkan verir. Monumentin dayanıqlı gözəl kompozisiyası, forma-biçimin ciddi və düşünülmüş plastik ifadəsi ilə seçilir. Burada hər şey qarşılıqlı əlaqədədir, hər bir detal bütöv bir zəncirin hissələri kimi digərini tamamlayır. Şairin vüqarlı, təntənəli obrazını dərin həyatiliyi ilə dolu

olan fiquru postamentlə vahid, qırılmaz vəhdət təşkil edir. Bu vəhdət proporsiyaların, konturların, heykəltəraşlıq və memarlıq ölçülərinin düşünülmüş nisbəti ilə əldə edilib. Heykəlin uğurlu fəza-məkan həlli onun ətrafı və tamaşaçısı ilə mənəvi təmas yaratmaq gücündədir. Obrazın açılmasında mühüm ifadə vasitələrindən biri də onun əlləridir. Heykəltəraş monumentin plastik həllini axtararkən, təkcə obrazın üzünün psixoloji səciyyəsini açmaqla kifayətlənməmiş, siluetin yaddaqalan və cəlbedici ifadəsini tapmaq sahəsində də inadla çalışmışdır. Obrazın poetik-fəlsəfi həlli əsas məqsəd olmuşdur.

Heykəltəraşın konstruktiv həllin məntiqliyinə, inandırıcılığına nail olunmasına yönəli axtarışları onun sonrakı fəaliyyətində də başlıca amilə çevrilib. Kompozisiyalarında bir qayda olaraq arxitektonika axtarışlarını həyata keçirməsi Natiq Əliyevin özünəməxsus obrazlı-plastik struktur təfəkkür tərzini aşkarlamaqla, onun əsas yaradıcılıq istiqamətini müəyyənləşdirmişdir.

## ƏDƏBİYYAT


1. Ağasoy-Səfərova H. Müstəqillik dövründə Azərbaycan dəzgah heykəltəraşlığı [Mətn]: sənətşün. üzrə fəls. d-ru elmi dər. al. üçün təq. ed. dis-nın avtoreferatı – Bakı, 2015.
2. Qasımov F. "Heykəltəraş Natiq Əliyevin yaradıcılığı" // Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Müasir mədəniyyətşünaslıq jurnalı. №1, s. 12-19
3. Qasımov F. Xalq rəssamı Natiq Əliyevin yaradıcılığı müasir Azərbaycan heykəltəraşlığı kontekstində [Mətn] : sənətşün. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı : Bakı: 2014.
4. Quliyev Rafiq. Azərbaycan təsviri sənətində tarix və şəxsiyyət. Bakı, 2013. 218.
5. Əliyev Z. Heykəltaraşın sənət dünyasındakı izləri: Xalq rəssamı Natiq Əliyevin portret cizgiləri //Mədəniyyət. 2008. 18 dekabr. S. 8.
6. Рустамова С.А. Монументальная скульптура в структуре города. Диссертация на соискание ученой степени кандидата искусствоведения. 1997, Баку, Инженерно-строительный Университет, 151 с.



***Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent.***
***Azərbaycan Rəssamlıq Akademiyası***
***E-mail: samir_qismetoglu@mail.ru***

**Samir Sadigov**


## MONUMENTALITY IN PEOPLE'S ARTIST NATIG ALIYEV'S ACTIVITY


People's Artist Natig Aliyev has a unique and leading position in Azerbaijan monumental sculpture. It is primarily due to the fact that the sculptor was formed in this direction - the main specialty of his education was just "Monumental sculpture". It is known that Natig Aliyev is the first Azerbaijani sculptor who graduated from the department of "Monumental sculpture" of the St.Petersburg Higher Art School named after V. Mukhina with honors. The contribution given by Natig Aliyev to the monumental sculpture of Azerbaijan are not limited with the monuments such as the statues of Mozart, Ziverbey Ahmadbeyov, the bronze statue of the famous Norwegian traveler Thor Heyerdahl in the village of Kish and others, he is also the author of numerous monuments of prominent political, literary and artistic figures of Azerbaijan erected outside our republic. The author of the monuments such as Heydar Aliyev in Kiev, "Khojaly" in the city Mexico, Heydar Aliyev in Belgrade, the prominent composer Uzeyir Hajibeyli's monument in Novi-Sad City of Serbia, the monument to Huseyn Javid in the Royal Park of Podgorica, capital of Montenegro and "Khojaly genocide" erected in the region Kiziljahamam of Ankara is Natig Aliyev. In the article the multifaceted activity of our contemporary, prominent Azerbaijani sculptor Natig

Aliyev is investigated, the artistic and technical characteristics of his works such as Mozart, Ziverbey Ahmadbeyov and others, erected in Baku, are studied.

**Keywords:** *Natig Aliyev, sculpture, monumental, description, form, image, plasticity*

**Самир Садыгов**

## МОНУМЕНТАЛЬНОСТЬ В ТВОРЧЕСТВЕ НАРОДНОГО ХУДОЖНИКА НАТИГА АЛИЕВА

Народный художник Натиг Алиев занимает уникальное и ведущее место в азербайджанской монументальной скульптуре. Это в первую очередь связано с тем, что скульптор формировался в этом направлении — основной специальностью его образования была «Монументальная скульптура». Известно, что Натиг Алиев — первый азербайджанский скульптор, с отличием окончивший отделение «Монументальная скульптура» Санкт-Петербургского высшего художественного училища имени В. Мухиной. Вклад Натига Алиева в азербайджанскую монументальную скульптуру включает не только памятники Моцарту и Зивербеку Ахмедбекову, установленные в различных уголках нашей республики, или же бронзовый памятник знаменитому норвежскому путешественнику Туру Хейердалу в селе Киш и др. Его творчество не ограничивается этими и другими многочисленными памятниками, он также является автором множества скульптур и памятников видным общественно-политическим, литературным и художественным деятелям Азербайджана, воздвигнутых за пределами нашей республики. Натиг Алиев является автором скульптур Гейдара Алиева в Киеве, «Ходжалы» в Мехико, Гейдара Алиева в Белграде, выдающегося композитора Узеира Гаджибейли в Нови-Саде, Сербия, памятника Гусейну Джавиду в Королевском парке Подгорицы, столицы Черногории, и памятника «Геноцид Ходжалы», воздвигнутого в районе Кызылджахамам в Анкаре. В статье рассматривается многогранное творчество нашего современника, выдающегося азербайджанского скульптора Натига Алиева, изучаются художественные и технические особенности его произведений, в том числе Моцарта, Зивербека Ахмедбекова и других, воздвигнутых в Баку.

**Ключевые слова:** *Натиг Алиев, скульптура, монументальный, образ, форма, образ, пластика.*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 21.06.2025**
**Son daxilolma tarixi:18.07.2025**